# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 560**

**Bakı şəhəri, 15 dekabr 2017-ci il**

**“Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi Qaydaları”nın və “Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsinə görə haqqın məbləği”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 mart tarixli 44 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında**

“Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1593 nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 mart tarixli 44 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 3, maddə 337) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.4-cü bənddə “Agentliyin tabeliyində olan və tabeliyində olmayan qurumlarda yaradılan milli” sözləri “Milli” sözü ilə əvəz edilsin.

2. 2.10-cu bənddən “və ya onun strukturuna daxil olmayan tabeliyindəki qurumlar” sözləri və “büdcədənkənar xüsusi vəsaitləri” sözləri çıxarılsın.

3. Qaydalara əlavə - “Beynəlxalq standart eyniləşdirmə nömrəsinin verilməsi haqqında ərizə”yə “Agentliyinin” sözündən sonra “İdarə Heyətinin” sözləri əlavə edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**